Səfərin məqsədi İstanbulda YUNİSEF və Türkiyə hökuməti tərəfindən təşkil olunmuş "Bütün uşaqların keyfiyyətli təhsilə cəlb olunması" mövzusunda təhsil nazirlərinin regional konfransında iştirak etməkdən ibarətdir.

Nazir müavini konfrans çərçivəsində "Yeniyetmələr, bərabərlik və təhsil" mövzusunda keçirilmiş işgüzar iclasda məruzə ilə çıxış edib.

C.Bayramov Azərbaycanda həyata keçirilən təhsil islahatları, ölkə Prezidenti tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və uşaqların təhsilə cəlb edilməsi sahəsində atılan addımlarla bağlı konfrans iştirakçılarına geniş məlumat verib. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində minlərlə azərbaycanlı uşağın keyfiyyətli təhsildən kənarda qaldığını nəzərə çatdıran nazir müavini bu istiqamətdə Azərbaycan hökuməti tərəfindən həyata keçirilmiş tədbirlərin uğurlu nəticələrindən söhbət açıb.

Tədbirin ekspertlər səviyyəsində keçirilmiş müzakirələrində Təhsil Nazirliyinin məsul əməkdaşları müxtəlif mövzular üzrə təqdimatlarla çıxış ediblər.